

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 176 (21.077)

16 sentyabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 15-də – Bilik Günündə Bakının Xəzər rayonunun Şağan qəsəbəsindəki Füzuli Gözəlov adına 124 nömrəli tam orta məktəb üçün yeni inşa edilən binanın açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyevə görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, qısa vaxtda müasir tikinti standartlarına uyğun inşa olunan məktəb indi 1560 şagird yerlikdir. Yeni tədris ilindən məktəb bir növbəli olacaq. 65 sinif otağının hamısı zəruri avadanlıq və əyani vəsaitlərlə təchiz olunub.

Sonra Prezident İlham Əliyev məktəbin kollektivi və Şağan qəsəbəsi ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya-Azərbaycan hökumətlərarası komissiyanın həmsədri Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# Bilik Günündə Şərur Texniki-Peşə və Sürücülük Məktəb kompleksi istifadəyə verilmişdir





Sentyabrın 15-də – Bilik Günündə Şərur Texniki-Peşə və Sürücülük Məktəb kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Bilik Günü tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada təhsilin inkişafına hərtərəfli qayğı göstərilir. Son 10 ildə muxtar respublikanın şəhər, kənd və qəsəbələrində müasir avadanlıqlarla təchiz edilən, yeni kompüter dəstləri və elektron lövhələrlə təmin olunan 142 məktəb binası istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün ümumtəhsil məktəblərində oxuyan hər 12 şagirdə 1 kompüter düşür. Şagirdlərin biliklərə yiyələnməsi, dərslərin yüksək səviyyədə təşkili üçün ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə quraşdırılmış, təhsil ocaqları dərslik və dərs ləvazimatları ilə təmin olunmuşdur.

Qeyd olunmuşdur ki, 2013-2014-cü tədris ilində ümumtəhsil məktəblərində birinci siniflərdə 4700 şagird təhsil alırdısa, 2014-2015-ci tədris ilində birinci siniflərə 5163 şagird qəbul olunmuşdur. Onların da 1066-sı Şərur rayonunun ümumtəhsil məktəblərinin payına düşür. Muxtar respublikada peşə təhsili şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. 2014-2015-ci tədris ili üçün peşə təhsili müəssisələrinə 500 şagird qəbul olunmuşdur. Ümumilikdə, peşə təhsili müəssisələrində 19 ixtisas üzrə 650 müdavimin təlim-tərbiyəsi ilə 72 müəllim və istehsalat təlimi ustası məşğul olacaqdır. Piri Nağıyev yaradılan şəraitə görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Məktəbin müəllimi Jalə İsmayılova demişdir ki, muxtar respublikada təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür, təhsil müəssisələri yeni binalarla təmin olunurlar. Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin yeni tədris və yataqxana binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Jalə İsmayılova yaradılan şəraitdən səmərəli istifadə edərək gənc nəslin təlim-tərbiyəsi istiqamətində səylə çalışacaqlarına, vətənpərvər və ixtisaslı kadrlar hazırlayacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanına əsasən, sentyabr ayının 15-nin ölkəmizdə “Bilik Günü” kimi qeyd olunduğunu bildirmiş, bu münasibətlə muxtar respublikanın ümumtəhsil, ali və orta ixtisas təhsili məktəblərinin şagird və tələbələrini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri, Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin kollektivini isə həm də yeni tədris və yataqxana binalarının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: “Bu gün ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi təhsil strategiyası Azərbaycanda öz bəhrəsini verməkdədir. Gənclərin təhsil alması üçün bütün imkanlar yaradılmışdır. Yeni məktəb binalarının istifadəyə verilməsi, təhsil müəssisələrinin informasiya texnologiyaları ilə təminatı, distant və elektron təhsil sisteminə keçid tədrisin səviyyəsini daha da yüksəldəcəkdir.

Təhsilli gənclik hər bir ölkənin intellektual sərvətidir. Bu sərvətdən səmərəli istifadə, müxtəlif sahələr üzrə mütəxəssislərin hazırlanması bizim qarşıda duran əsas vəzifəmizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məsələnin vacibliyini nəzərə alaraq demişdir: ***“Gənclərimiz yaxşı oxumalıdır, bilik sahibi olmalıdır, peşəkar olmalıdırlar. Çünki bu gün Azərbaycanda bütün imkanlar var. İqtisadiyyat inkişaf edir, yeni iş yerləri, yeni sənaye müəssisələri, xidmət sahələri açılır. Peşəkar kadrlara böyük ehtiyac var. Mən çox istəyirəm ki, bizim əsas, aparıcı sahələrimizin inkişafında Azərbaycan gəncləri öz rollarını oynasınlar”.***

Ali Məclisin Sədri demişdir: “Peşəkar kadrlar yalnız ali və orta ixtisas təhsili müəssisələrində hazırlanmır. Bu məsələdə peşə təhsilinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırmışdır. Bu səbəbdən son illər peşə təhsilinin məzmunu tamamilə yeniləşmiş, peşə tədrisi müəssisələrinin maddi-texniki bazası gücləndirilmişdir. İqtisadiyyatın çoxşaxəli inkişafı, yeni peşə və sənət sahələrinin yaranması özü ilə bərabər ixtisaslı kadrlara olan tələbatı da artırır. Artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilmişdir. Hazırda muxtar respublikada 1 peşə liseyi, 4 peşə məktəbi və 1 Regional Peşə Tədris Mərkəzi fəaliyyət göstərir. Bu gün istifadəyə verilən Şərur Texniki-Peşə və Sürücülük Məktəbi də muxtar respublikada peşə ixtisaslı kadrlara olan tələbatın ödənilməsində mühüm rol oynayacaqdır”.

Yeni dərs ili ilə bağlı aid qurumlara konkret tapşırıqlar verən Ali Məclisin Sədri demişdir: “Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi informasiya texnologiyalarının imkanlarından istifadə etməklə peşə təhsilinin daha da təkmilləşdirilməsinə, müasir texnika və texnologiyalara dair tədris materiallarını özündə əks etdirən proqramlar və dərs vəsaitlərinin hazırlanmasına, mühəndis-pedaqoji heyətin səviyyəsinin yüksəldilməsinə nail olmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Naxçıvan Regional Peşə Tədris Mərkəzində kadr hazırlığı işini əmək bazarının tələbləri ilə uzlaşdırmalı, ixtisaslaşma apararaq yeni kurslar açmalı, təlim kurslarını bitirən müdavimlərin müvafiq işlə təmin olunmalarını diqqət mərkəzində saxlamalıdır.

Şəhər və rayon icra hakimiyyətləri də Təhsil Nazirliyi ilə birlikdə yerlərdə ixtisaslı kadrlara olan tələbatı müəyyənləşdirməli, gənclərin peşə istiqamətinə cəlbi ilə bağlı tədbirlər gündəlikdə saxlanılmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi peşə məktəbləri ilə sahibkarlıq subyektləri, xüsusilə müasir texnologiyalar əsasında işləyən istehsal müəssisələri arasında əlaqəni gücləndirməli, kadrlar tələbata uyğun hazırlanmalı, işə qəbul zamanı peşə təhsili olan kadrlara üstünlük verilməlidir. Kütləvi informasiya vasitələrində peşə təhsilinə marağın artırılması məqsədilə maarifləndirici veriliş və qəzet materialları hazırlanmalıdır”.



Ali Məclisin Sədri gənclərə müraciət edərək demişdir: “Müasir gənclik ümummilli liderimizin əsəri olan müstəqil Azərbaycanda yaşayır. Müstəqil ölkədə yaşamaq nə qədər xoşdursa, onun qorunub saxlanması da bir o qədər vacib və taleyüklü məsələdir. Gələcəkdə bu şərəfli işi bu gün məktəbdə yetişən gənclik həyata keçirəcəkdir. Ona görə də tariximizi öyrənmək, adət-ənənələrimizə, milli dəyərlərimizə sahib çıxmaq, yüksək təhsil almaq hər bir gəncin borcu olmalı, pedaqoji kollektivlər öz fəaliyyətlərini bu istiqamətdə qurmalıdırlar. Gənclərimiz daha savadlı və vətənpərvər olmalı, ixtisaslı kadr kimi formalaşmalıdır”.

Ardı 2-ci səhifədə





Ali Məclisin Sədri muxtar respublikada təhsilə başlayan bütün şagird, kursant və tələbələrə, müəllimlərə bu yolda uğurlar arzulamış və çıxışını ümummilli liderimiz Heydər Əliyevin gələcəyimiz olan gənclərə xitabən söylədiyi ***“Müstəqil Azərbaycanda təhsil***





***alan hər bir gənc gələcəkdə Azərbaycanın mənafeyi üçün çalışmağı qarşısına məqsəd qoymalı, peşəkar mütəxəssis və milli kadr kimi yetişməlidir”*** fikirləri ilə bitirmişdir.

Sonra Ali Məclisin Sədri Şərur rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan 25 şagirdə kompüter dəsti hədiyyə etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, peşə məktəbi tədris korpusu və yataqxana binasından ibarətdir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan tədris korpusunda dərslərin səmərəli təşkili üçün hər cür şərait yaradılmışdır. 360 yerlik binada 17 sinif otağı, 4 laboratoriya, 5 emalatxana, şahmat və kompüter otaqları, müəllimlər otağı, hərbi kabinə, tibb məntəqəsi, idman zalı, arxiv, dərzi, bərbərxana və digər yardımçı otaqlar vardır.

Sinif otaqlarında məlumat stendləri asılmış, emalatxanalarda müxtəlif avtomobil və kənd təsərrüfatı texnikalarının hissələri, eləcə də dəzgahlar qoyulmuşdur. Bu da keçilən dərslərin praktik olaraq daha yaxşı mənimsənilməsinə, peşəkar mütəxəssislərin hazırlanmasına kömək göstərəcəkdir. Məktəbdə 11 ixtisas – elektrik montyoru, bərbər, qadın bərbəri, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, kompüter istifadəçisi, xalçaçı, traktorçu maşinist, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant, avtomobil sürücüsü ixtisasları tədris olunacaqdır. Bu il həmin ixtisaslar üzrə, ümumilikdə, 220 müdavimin məktəbə qəbulu planlaşdırılmışdır.

Peşə hazırlığı ilə bağlı təlim prosesində və əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadr hazırlığında informasiya texnologiyalarının imkanlarından istifadə mühüm əhəmiyyət daşıyır. Şərur Texniki-Peşə və Sürücülük Məktəbində də 11 elektron lövhəli sinif və kompüter otağı vardır. Kompüter otağındakı 21 kompüterin hər biri internetə qoşulmuşdur. Bildirilmişdir ki, kompüterlərə yüklənən elektron tədris proqramları biliklərin daha səmərəli mənimsənilməsinə imkan verəcəkdir. Xüsusilə müdavimlər internet şəbəkəsi vasitəsilə təhsil aldığı peşə üzrə ətraflı məlumatlar toplaya biləcəklər. Bu da mütərəqqi texnologiyalarla işləməyi, kompüter texnikasından sərbəst istifadə etməyi bacaran yüksəkixtisaslı kadrların hazırlanmasına zəmin yaradacaqdır.

Binada sürücülük peşəsinin praktik mənimsənilməsi üçün də lazımi şərait yaradılmış,



2 avtotrenajor quraşdırılmışdır. Avtotrenajorlardan biri yük, digəri isə minik maşını tiplidir. Bu müasir tədris avadanlıqları müdavimlərin nəqliyyat vasitəsindən istifadə qaydalarını daha səmərəli mənimsəmələrinə şərait yaradacaqdır. İstifadə zamanı yolhərəkət qaydalarının pozulması hallarının səsli və vizual olaraq bildirilməsi isə təlim zamanı buraxılan nöqsanların aradan qaldırılması baxımından əhəmiyyətlidir. Mühərrik gücünü, hava və yol şəraitlərini seçmək imkanı yaradan avtotrenajorlar sürücülük peşəsinə yiyələnmək istəyənlər üçün ideal tədris vasitəsidir.

Elektron lövhəli sinfə baxış zamanı Naxçıvan Muxtar Respublikası rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov muxtar respublikada elektron təhsilin təşkili və distant təhsilə keçidlə bağlı həyata keçirilən tədbirlər barədə Ali Məclisin Sədrinə məlumat vermişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi server qurulmuş, ümumtəhsil məktəbləri və 10 muzey bu sistemə qoşulmuşdur. Bundan əlavə, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 25 şagird yerlik Distant Tədris Mərkəzi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin ***www.tehsil.nakhchivan.az*** internet saytının “e-təhsil” bölməsində qeydiyyatdan keçməklə Distant Tədris Mərkəzinə qoşulmaq mümkündür.

Ali Məclisin Sədri Şərur Texniki-Peşə və Sürücülük Məktəbi, Heydər Əliyev Muzeyi və ümumtəhsil məktəbləri arasında videobağlantı vasitəsilə “Heydər Əliyev və Naxçıvan” mövzusunda keçilən dərsi izləmiş, elektron təhsilə keçidlə bağlı həyata keçirilən tədbirlərin bundan sonra da davam etdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

Məktəbin yataqxana binası da müasir layihə əsasında qurulmuşdur. Zəruri mebel avadanlıqları ilə təchiz olunan bina 83 yerlikdir. Burada müdavimlər üçün lazımi məişət şəraiti yaradılmış, camaşırxana, yeməkxana, əşya və ərzaq anbarları istifadəyə verilmişdir.

Binanın həyətindəki yürüş-təlim meydançası da yol hərəkəti qaydalarına uyğun olaraq işarələnmiş, işıqforlar qurulmuşdur. Təlim meydançasında müdavimlər əyani sürmə vərdişlərinə yiyələnəcəklər. Məktəbə verilən yeni nəqliyyat vasitəsi sürücülük kursu keçənlərin praktik vərdişlərinin artırılmasına şərait yaradacaqdır.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, bu gün ali təhsillə yanaşı, peşə təhsilinin inkişafı istiqamətində də ardıcıl tədbirlər görülür. Şərur Texniki-Peşə və Sürücülük Məktəbi üçün müasir kompleksin istifadəyə verilməsi də bu sahəyə göstərilən diqqətin nəticəsidir. Yaradılan şərait pedaqoji heyətin qarşısında mühüm vəzifələr qoyur. Məktəbdə tədris olunan ixtisaslar üzrə peşəkar kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılmalı, tədris prosesi günün tələbləri səviyyəsində qurulmalıdır.

Müəllimlər yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Binalarda müasir videonəzarət sistemi quraşdırılmış, məktəbin həyətində abadlıq işləri aparılmış, istirahət guşəsi, açıq idman qurğuları və mini-futbol meydançası istifadəyə verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında əkinəyararlı torpaqların istifadə vəziyyəti barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Valeh Vəliyev müzakirə olunan məsələ ilə bağlı məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: “Naxçıvan Muxtar Respublikası 5,5 min kvadratkilometr və ya 550 min 275 hektar əraziyə malikdir. Bunun 164 min 276 hektarı və ya 29,9 faizi kənd təsərrüfatı üçün yararlı, 367 min 209 hektarı və ya 66,7 faizi kənd təsərrüfatı üçün yararsız, 18 min 790 hektarı və ya 3,4 faizi həyətyanı torpaq sahələri, meşə və kolluqlardan ibarətdir. Kənd təsərrüfatına yararlı torpaqların 51 min 633 hektarını əkin sahələri, 1007 hektarını dincə qoyulmuş torpaqlar, 1353 hektarını üzüm və meyvə bağları, 110 min 283 hektarını isə biçənək və örüşlər təşkil edir. Həyətyanı torpaq sahələrinin 1529 hektarı tikinti altında, 12 min 933 hektarı əkin altında olan torpaqlardan ibarətdir”.

Ali Məclisin Sədri demişdir: “Naxçıvan Muxtar Respublikasında aparılmış torpaq islahatı nəticəsində 42 min 43 hektar torpaq sahəsi kənd təsərrüfatı məhsulları istehsalı üçün 70 min 763 ailənin mülkiyyətinə verilmiş, 1216 hektar əkinəyararlı torpaq sahəsi isə yaşayış məntəqələrinin perspektiv inkişafı üçün saxlanılmışdır. Son 19 il ərzində muxtar respublikada əkinəyararlı torpaqların mühafizəsi və onlardan səmərəli istifadə diqqət mərkəzində olmuşdur. Bunun nəticəsidir ki, cari ilin məhsulu üçün həyətyanı əkin sahələri ilə birlikdə 60 min 829 hektar sahədə əkin aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci

*Ardı 3-cü səhifədə*

illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın icrası ilə əlaqədar ötən dövr ərzində Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək rayonlarının və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış torpaqlar müəyyən edilərək xəritələşdirilmişdir. Məlum olmuşdur ki, muxtar respublika üzrə şoranlaşmaqda olan əkin sahələri 1698 hektar, qrunt sularının üzə çıxması nəticəsində çəmənləşən əkin sahələri 5635 hektar, şoranlaşan örüş sahələri isə 2434 hektardır”.

Ali Məclisin Sədri qeyd etmişdir ki, şoranlaşmaqda olan 1698 hektar əkin sahəsinin 806 hektarı Sədərək, 187 hektarı Şərur, 124 hektarı Kəngərli, 66 hektarı Culfa, 94 hektarı Babək rayonlarının, 421 hektarı isə Naxçıvan şəhərinin ərazisindədir. Çəmənləşən 5635 hektar əkin sahəsinin 112 hektarı Sədərək, 3073 hektarı Şərur, 1117 hektarı Kəngərli, 572 hektarı Culfa, 34 hektarı Ordubad, 690 hektarı Babək rayonlarının, 37 hektarı isə Naxçıvan şəhərinin payına düşür. 2434 hektar şoranlaşmış örüş sahəsinin 2301 hektarı Sədərək, 133 hektarı isə Şərur rayonunun ərazisindədir.

“Qeyd olunan nöqsanların aradan qaldırılması üçün fəaliyyət daha da gücləndirilməli, torpaq fondundan səmərəli istifadə olunmalıdır”, – deyən Ali Məclisin Sədri aid qurumlara konkret tapşırıqlar verərək demişdir: “Muxtar respublikada əkinəyararlı torpaq sahələrinin məhdud olması onlardan səmərəli istifadənin vacibliyini ön plana çəkir. Ona görə də Nazirlər Kabineti torpaq balansına uyğun olaraq, torpaqlardan təyinatı üzrə is-



tifadəyə nəzarəti artırmalıdır. Bəzi hallarda kənd təsərrüfatına yararlı torpaqlar icarəyə verilərək, digər məqsədlər üçün istifadə olunaraq yararsız hala düşür. Yerli icra hakimiyyətləri əkinəyararlı torpaq sahələrindən digər məqsədlər üçün istifadəni aradan qaldırmalı, müəssisələrin, inzibati binaların, sosial təyinatlı obyektlərin tikintisinin əkin üçün yararlı olmayan ərazilərdə aparılması təmin edilməlidir.

Kənd Təsərrüfatı Nazirliyi Torpaq və Xəritəçəkmə Komitəsi ilə birlikdə kənd təsərrüfatına yararlı torpaqların kateqoriyalar üzrə səmərəli istifadə istiqamətlərini müəyyən etməli, perspektiv inkişaf üçün nəzərdə tutulmuş əvəzləşdirilməsi mümkün olan əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması üçün müvafiq tədbirlər görməlidir. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi eroziya və şoranlaşmaya məruz qalmış torpaq sahələrinin dəqiqləşdirilməsi və xəritələşdirilməsi işini davam etdirməli, əkinəyararlı torpaqlardan istifadə və mövcud vəziyyət barədə rübdə bir dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi müxtəlif tikinti və sənaye tullantılarının əkin üçün yararlı torpaq sahələrinə atılması, torpağın münbit qatının tikinti məqsədləri üçün istifadə edilməsi hallarına qarşı təsirli tədbirlər görməli, torpaqların çirkləndirilməsinin qarşısı alınmalıdır”.

Ali Məclisin Sədri tapşırmışdır ki, Kənd Təsərrüfatı Nazirliyi Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə su ehtiyatlarından səmərəli istifadəni təmin etmək üçün kənd təsərrüfatı bitkilərinin və ərazilərin xüsusiyyətlərini nəzərə alan suvarma rejimi hazırlamalı və ona əməl edilməsinə nail olmalıdır. Suvarılan torpaqların meliorativ vəziyyətinə və sudan istifadə olunmasına dövlət nəzarəti gücləndirilməli, torpaqlarda meliorativ tədbirlər həyata keçirilməli, arx və kanalların vaxtında təmizlənməsi nəzarətdə saxlanılmalı, suvarmada mütərəqqi üsullardan istifadə təmin edilməlidir. Eroziya və şoranlaşmanın qarşısının alınması üçün kompleks təsərrüfat, aqrotexniki, meliorativ, hidrotexniki və rekultivasiya tədbirləri aparılmalı, gübrə və kimyəvi maddələrdən düzgün istifadəyə ciddi fikir verilməli, torpağın sanitar-texniki mühafizəsi üçün tədbirlər görülməlidir.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi aidiyyəti orqanlarla birlikdə yay-qış otlaqlarından düzgün istifadəni təmin etməli, otlaqların sıradan çıxmasının qarşısı alınmalıdır. Səhralaşmanın qarşısının alınması üçün yay-qış otlaqları inventarlaşdırılmalı, sıradan çıxmış yaylaqlar kənd təsərrüfatı dövriyyəsindən çıxarılaraq dincə qoyulmalı, bərpa tədbirləri görülməli, fermerlər arasında maarifləndirmə işləri aparılmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında aid orqanlara müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Bilik Günü muxtar respublikada bayram əhval-ruhiyyəsi ilə qeyd olunub



## Naxçıvan şəhəri

***15 sentyabr – Bilik Günü münasibətilə Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Tədbiri Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov açaraq bildirib ki, 2013-2014-cü tədris ilində Naxçıvan şəhərinin tam orta məktəblərində 8643 şagird oxuyub, onların təlim-tərbiyəsi ilə 1630 müəllim məşğul olub.***

Bu gün Naxçıvan şəhər məktəblilərinin hər 12 nəfərinə bir kompüter dəsti düşür. Müəllim və şagirdlərin ixtiyarında 62 elektron lövhə var. Dərslərin elektronlaşdırılması, ağıllı lövhədən istifadə, müasir dərsə verilən üstünlüklərin tətbiqi şagirdlərin hərtərəfli biliklərə yiyələnməsində mühüm vasitədir. Həyata keçirilən belə tədbirlərin nəticəsidir ki, ali və orta ixtisas təhsili məktəblərinə qəbulun həm kəmiyyət, həm də keyfiyyət faizi ilbəil artır.

Qeyd olunub ki, 2014-cü ildə Naxçıvan Şəhər Təhsil Şöbəsinin əhatə etdiyi 17 tam orta məktəbi bitirən 704 məzunun 634 nəfəri ali məktəblərə sənəd təqdim edib. Onlardan 381 nəfəri birinci turda ali məktəblərə qəbul olunub; 42 məzun isə müxtəlif orta ixtisas məktəblərinin tələbəsi adına layiq görülüb. Ümumilikdə, sənəd verənlərin 66,7 faizi ali və orta ixtisas təhsili məktəblərinə qəbul olunub. Tələbə adını qazanan məzunlardan 67-si 500-700, onlardan 50-si 500-600, 13-ü 600-650, 4-ü isə 650-700 intervalında bal toplayıb.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək müəllim və şagirdləri Bilik Günü münasibətilə təbrik edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikasında təhsil sistemi dinamik inkişaf yolundadır. Son illər muxtar respublikada 56 min 926 şagird yerlik 142 orta məktəb binasının tikilməsi və ya yenidən qurulması bunun ifadəsidir. Yeni məktəb binalarından 13 min 670 şagird yerlik olmaqla, 15-i Naxçıvan şəhərinin payına düşüb.

Qeyd olunub ki, Naxçıvan şəhərinin ümumtəhsil məktəblərinə 654 kompüter dəsti verilib. Kompüterlərin 80 faizdən çoxu internetə qoşulub. Şagirdlərin yüksək təhsil almaları üçün yaradılan şərait uğurları daha da artırmağa imkan verib.

Sonra məktəblilər ulu öndər Heydər Əliyevə, dövlətçiliyimizə, müstəqilliyimizə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

* * *

## Babək rayonu

***Dünən Babək rayonunun Çeşməbasar kənd tam orta məktəbində də Bilik Günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Fariz Qasımov açıb.***

Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev çıxış edərək bildirib ki, son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. Bu iş muxtar respublikamızda, o cümlədən Babək rayonunda da uğurla həyata keçirilir.

Vurğulanıb ki, rayonda 34 ümumtəhsil, eyni zamanda 6 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Bu il ali məktəblərə qəbul imtahanında daha yüksək göstəricilərə nail olunub. Belə ki, orta məktəbi bitirən 785 şagirddən 592 nəfər ali və orta ixtisas təhsili məktəblərinə sənəd verib. Onlardan 278 nəfəri tələbə adını qazanıb. Bu tələbələrdən 47 nəfəri 500-700 intervalında, onlardan 14 nəfəri isə 600-dən yuxarı bal toplayıb.



Həmçinin orta ixtisas məktəblərinə tam orta təhsil bazasından 41 nəfər, ümumi orta təhsil bazasından 39 nəfər qəbul olunub.

Çeşməbasar kənd tam orta məktəbinin müəllimi Gülsadə Əliyeva çıxışında məktəbin uğurlarından danışaraq qeyd edib ki, 2005-ci ildə tikilən məktəb binası ötən il əsaslı təmir olunub. 2013-2014-cü tədris ilində məktəbi 10 məzun bitirib. Onların hamısı ali və orta ixtisas məktəblərinə sənəd verib. Bunlardan 7-si ali, 2 nəfəri isə orta ixtisas təhsili məktəblərinə qəbul olunub. Həmçinin 3 şagird ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olunub. Bu il məktəbin birinci sinfində 9 nəfər oxuyacaq. Çalışacağıq ki, bizə göstərilən qayğı müqabilində hər il daha yüksək göstəricilərə imza ataq.

Valideynlərdən Nigar Sadiqova çıxış edərək muxtar respublikada təhsilə göstərilən qayğıya görə minnətdarlığını bildirib, bu gün birinci sinfə qədəm qoyan övladının belə gözəl bir şəraitdə təhsil alacağı üçün sevincli olduğunu deyib.

Sonra zəng çalınıb, şagirdlər siniflərə daxil olublar.

## Şərur rayonu

*15 sentyabr – Bilik Günü münasibətilə Şərur şəhərindəki 1 nömrəli tam orta məktəbdə tədbir keçirilib. Tədbiri Şərur şəhər 1 nömrəli tam orta məktəbin direktoru Səməd Əliyev açıb.*

Sonra Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edərək Bilik Günü münasibətilə pedaqoji kollektivləri və şagirdləri təbrik edib, muxtar respublikada, eləcə də Şərur rayonunda təhsilin inkişafına göstərilən qayğıdan danışıb. Bildirilib ki, təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin müasir dövrün tələbləri səviyyəsində inkişafı müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahəyə xüsusi diqqət və qayğı göstərib, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşıb, xalqın intellektual səviyyəsinin artırılmasını ən vacib vəzifələrdən biri kimi qarşıya qoyub. Ulu öndərin təhsil siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü tədbirlər neçə illərdir ki, öz bəhrələrini verməkdədir. Qürurverici haldır ki, bu siyasət muxtar respublikada da təhsil sahəsində böyük nailiyyətlər qazanılmasına stimul olub. Hər il Şərur rayonunda yeni məktəb binalarının tikilməsi və ya mövcud məktəb binalarının müasir arxitektura üslubunda yenidən qurulması, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi və digər bu kimi tədbirlər gənclərin dövlətçiliyimizə və müstəqilliyimizə sədaqət ruhunda tərbiyə olunmalarına, vətənpərvər vətəndaşlar kimi formalaşmalarına, elmlərin sirlərinə dərindən yiyələnmələrinə imkan verib.

İcra başçısı növbəti tədris ilində kollektivə uğurlar arzulayıb.

Tədbirdə valideynlər adından Məşuqə Quliyeva çıxış edərək gələcəyimiz olan uşaqların mükəmməl bilik və savad qazanmaları üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib.

Sonra məktəbə yenicə qədəm qoyan birinci sinif şagirdlərinin ifasında şeirlər səsləndirilib, ilk zəng çalınıb.

* * *

## Ordubad rayonu



Ordubad rayonu tarixən güclü təhsil ənənələrinə malik olan, bu gün də həmin ənənələri qoruyub saxlayan bölgələrimizdən biridir. Belə təhsil ocaqları sırasında Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbini xüsusi qeyd etmək lazımdır. Məktəb rayonun ən müasir təhsil ocaqlarından biridir. Bu məktəbdə dərslərin ən yüksək səviyyədə tədris olunması üçün bütün imkan və şərait təmin edilib. Ötən dərs ilində məktəbi bitirən 18 məzunun hamısı ali məktəblərə qəbul imtahanlarında iştirak edib və onlardan 9-u artıq bu gün tələbə adını daşıyır. Bu il isə internat məktəbinin birinci sinfinə 40 nəfər uşaq qəbul edilib.

Bilik Günü münasibətilə təhsil ocağında keçirilən tədbiri məktəbin direktor müavini Mehman Vəlibəyov açıb.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxışında vurğulayıb ki, son 18 il ərzində rayonda 25 tam orta məktəb, 1 məktəbəqədər və 1 məktəbdənkənar təhsil müəssisəsi üçün yeni binalar inşa olunub. Həmin binalar müasir texniki vasitələrlə təmin edilib.

Qeyd olunub ki, ötən tədris ilində Ordubad rayonunun tam orta məktəblərinin XI siniflərindən 393 şagird məzun olub. Məzunların biri “Qızıl” medala, 1 nəfəri isə “Gümüş” medala layiq görülüb. Ali məktəbə qəbul üçün sənəd verən 298 nəfər məzundan 164 nəfəri tələbə adını qazanıb. Onlardan 24 nəfəri 500-700 arası bal toplamağa müvəffəq olub. Qəbul imtahanlarında Ordubad şəhərindəki 1 və 3 nömrəli tam orta məktəbləri, eləcə də Kotam, Aşağı Əylis, Yuxarı Əylis, Xanağa, Vələver, Kələki, Düylün, Gilançay, Biləv və Nürgüt kənd tam orta məktəbləri daha yaxşı göstəricilər əldə ediblər.

İcra başçısı yeni dərs ilinin başlanması münasibətilə müəllimləri, şagirdləri və valideynləri təbrik edib, 2014-2015-ci tədris ilini uğurla başa vurmaq üçün onlara müvəffəqiyyətlər arzulayıb.

Tədbirdə rayon Təhsil Şöbəsinin əməkdaşları və valideynlər çıxış ediblər.

*Ardı 4-cü səhifədə*

Əvvəli 3-cü səhifədə

Yeni dərs ilinin başlanması münasibətilə Culfa rayonunun ümumtəhsil müəssisələrində də ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbirlər keçirilmişdir. 2014-2015-ci tədris ilində ümumtəhsil müəssisələrinə qədəm qoyan 5000-ə qədər şagirdin təlim-tərbiyəsi ilə 800-dən artıq müəllim məşğul olacaq.

Bu il rayonun ümumtəhsil məktəblərinin birinci sinfinə 600-ə yaxın şagird qəbul olunmuşdur; on birinci sinifdə isə 418 şagird təhsil alacaq.

Bilik Günü münasibətilə Culfa şəhər 3 nömrəli tam orta məktəbdə keçirilən mərasimdə rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış etmişdir. Ş.Babayev yeni dərs ilinin başlanması münasibətilə məktəbin müəllim və şagird kollektivini təbrik edərək muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısından danışmışdır. Bildirilmişdir ki, Culfa rayonunda 28 ümumtəhsil məktəbinin 20-nin binası yenidən inşa edilmiş və ya əsaslı şəkildə təmir olunmuş, müasir avadanlıqlarla təchiz edilmiş, təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.



Culfa rayonu

Vurğulanmışdır ki, 2013-2014-cü tədris ilində 497 məzundan 357-si ali məktəblərə qəbul olunmaq üçün ərizə vermiş, onlardan 189 nəfəri tələbə adını qazanmışdır.

Tələbə adını qazanmış həmin məzunlardan 21 nəfəri 500-600, 6 nəfəri 600-650, 6 nəfəri isə 650-700 intervalında bal toplamışlar. Bir nəfər isə Prezident təqaüdünə layiq görülmüşdür.

Sonra məktəblilər ümummilli lider Heydər Əliyevə, Vətənə, müəllimə həsr olunmuş şeirlər söyləmişlər.

* * *



Kəngərli rayonu

Kəngərli rayonunun Qıvraq qəsəbə tam orta məktəbində Bilik Günü münasibətilə keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında yeni məktəb binalarının tikilməsi, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılır. Bunu Kəngərli rayonunun timsalında da görmək olar.

Bölgədə 10 tam orta məktəb, 2 Uşaq Musiqi Məktəbi üçün yeni binalar istifadəyə verilib, hazırda rayon Təhsil Şöbəsi, 1 orta məktəb və 1 məktəbdənkənar müəssisə üçün yeni binaların inşası davam etməkdədir.

Qeyd olunub ki, 2013-2014-cü tədris ilində 102 məzun, yəni ali məktəblərə sənəd verən abituriyentlərin 41 faizdən çoxu ali məktəblərə qəbul olunub.

İcra başçısı Bilik Günü münasibətilə rayonun bütün pedaqoji kollektivlərini təbrik edərək onlara növbəti dərs ilində daha böyük uğurlar arzulayıb.

Tədbirdə gənc müəllim Nailə Niftəliyeva, valideyn Əli Vəliyev, Qıvraq qəsəbə tam orta məktəbinin direktoru Mahmud Cavadov çıxış ediblər.

* * *

Sentyabrın 15-i bütün məktəblərdə olduğu kimi, Sədərək kənd 1 nömrəli tam orta məktəbdə də unudulmaz günlərdən birinə çevrildi. Yeni dərs ilinin başlanması münasibətilə məktəbin qarşısında toplaşan şagirdləri, müəllimləri və valideynləri ilk olaraq təbrik edən məktəbin direktoru Gülnarə Hüseynova qeyd etdi ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsil, təlim-tərbiyə ocaqlarının əsaslı təmiri və onlar üçün yeni binaların tikintisi dövlətin təhsilə qayğısının bariz göstəricilərindən biridir. Dövlətin bu qayğısına bizim cavabımız müstəqilliyimizin inkişafına xidmət edəcək yüksək təhsilli layiqli gənc nəsil yetişdirməkdir.

Tədbirdə çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov bildirdi ki, muxtar respublikanın bütün bölgələri kimi, Sədərək rayonunda da ildən-ilə təhsilin keyfiyyəti yüksəlmiş, ali məktəblərə qəbulda irəliləyiş əldə olunmuşdur.

Sədərək rayonu



Həbib İbrahimov 2013-2014-cü tədris ilinin yekunlarından bəhs edərək vurğuladı ki, rayonda təhsilini başa vuran məzunlardan 77 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş və 35 nəfəri yüksək nəticə göstərərək tələbə adını qazanmışdır. Abituriyentlərdən 2 nəfəri 500-dən, 1 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Orta ixtisas məktəblərinə 6, Heydər Əliyev adına Hərbi Liseyə isə 1 nəfər qəbul olunmuşdur.

Doğrudur, bunlar uğurlu göstəricilərdir. Ancaq dövlətin təhsilə olan diqqəti, ildən-ilə bu sahəyə artan qayğısı müəllim kollektivini və şagirdlərimizi daha səylə çalışmağa, təhsildə yüksək uğurlar qazanmağa sövq etməlidir.

Tədbirdə valideyn Arzuman Abdullazadə çıxış edərək dedi:

– Ölkəmizin sürətli iqtisadi inkişafının davamlı olması üçün intellektual potensialımız güclü olmalıdır. O potensial burada, Azərbaycan Prezidentinin və muxtar respublika rəhbərinin prioritet istiqamətlərdən biri kimi daim diqqətdə saxladıqları məktəblərdə formalaşıb inkişaf edir. Bunun üçün onların yaratdığı şərait, sözün əsl mənasında, yüksək alqışa layiqdir.

Beləcə, dəqiqələr, saatlar unudulmaz bir bayramın xoş ovqatında hiss edilmədən keçdi.



Şahbuz rayonu

Zəngin təhsil ənənələrinə malik olan Şahbuz rayonunda da Bilik Günü qeyd olunmuşdur. Bölgənin bütün tədris ocaqlarında bu münasibətlə tədbir keçirilmiş və muxtar respublikamızda təhsilin hərtərəfli inkişafına göstərilən qayğı xüsusi vurğulanmışdır. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən tədbiri giriş sözü ilə Şahbuz Rayon Təhsil Şöbəsinin müdiri Tarverdi Qurbanov açaraq məktəbliləri yeni tədris ilinin başlanması münasibətilə təbrik etmişdir.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxış edərək bildirmişdir ki, respublikamız müstəqillik əldə etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də bir sıra islahatlar aparılmış, uğurlu nəticələr əldə olunmuşdur.

Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, ölkəmizin hər yerində olduğu kimi, Şahbuz rayonunda da yeni məktəb binalarının tikintisinə xüsusi diqqət yetirilir. Son illər Şahbuz rayonunda məktəb tikintisi geniş vüsət almış, bu günə kimi 23 tam orta məktəbin 18-i yeni müasir bina ilə təmin edilmişdir. Yaxın günlərdə isə Şahbuz şəhər 2 nömrəli və Nursu kənd tam orta məktəbləri qapılarını şagirdlərin üzünə açacaq.

İcra başçısı demişdir ki, göstərilən dövlət qayğısı nəticəsində 2013-2014-cü tədris ilində rayonun ümumtəhsil məktəblərinin XI siniflərini bitirmiş 211 nəfər məzundan 164 nəfəri qəbul imtahanlarında iştirak etmiş, onlardan 98 nəfəri, yəni 59,7 faizi ali məktəblərə qəbul olunmuşdur. Məktəblərimizi bitirən məzunlarımızın 4 nəfəri ali məktəblərə qəbul imtahanında 600-700 intervalında, 17 nəfər isə 500-600 intervalında bal toplamışdır.

Bu il 11 illik təhsil bazasından 19 nəfər, 9 illik təhsil bazasından 20 nəfər məzun orta ixtisas məktəblərinə, 15 nəfər şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin direktoru Məhərrəm İsmayılov çıxış edərək məktəbin uğurlarından danışmış, gələcəkdə daha böyük nailiyyətlər qazanmaq üçün səylə çalışacaqlarını bildirmişdir.

**Xəbərlər şöbəsi**

# Ali təhsil ocaqları yeni dərs ilinə başladı

***15 sentyabr – Bilik Günü ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bayram əhval-ruhiyyəsi ilə qeyd olunur. Bu münasibətlə Naxçıvan Dövlət Universitetində yığıncaq keçirilib. Tədbir universitetin tarixi inkişaf yolunu əks etdirən və Universitet televiziyasının hazırladığı filmin nümayişi ilə başlayıb.***

Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin uğurlu davamı, Azərbaycanda aparılan təhsil islahatları Naxçıvan Dövlət Universitetində də öz real inikasını tapmaqdadır. Vurğulanıb ki, universitetin 108 hektarlıq ərazisində tikilən, əsaslı təmir olunaraq istifadəyə verilən tədris korpusları, Tələbə Sosial Xidmət Mərkəzi, Tələbə evi, Qonaq evi, idman meydançaları ölkədə və Naxçıvan Muxtar Respublikasında təhsilə, kadr hazırlığına göstərilən yüksək qayğının təzahürüdür.

Rektor Naxçıvan Dövlət Universitetinin tarixi inkişaf yoluna nəzər salaraq bu ali məktəbin yüksəkixtisaslı mütəxəssislər yetişdirən professor-müəllim heyətinə, güclü maddi-texniki bazaya malik olan, beynəlxalq əlaqələrini günbəgün genişləndirən ali təhsil ocağı olduğunu bildirib. Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti dünyaya inteqrasiya yolu tutmaqla bir çox beynəlxalq layihələrdə uğurla iştirak edir.

Bildirilib ki, baytarlıq ixtisası üçün nəzərdə tutulan yeni tədris korpusu, Tibb fakültəsinin kliniki xəstəxanasının yeni binası tezliklə ən müasir avadanlıqlarla təchiz olunmuş şəkildə istifadəyə veriləcək. Bu, universitetin maddi-texniki bazasının gücləndirilməsinə göstərilən dövlət qayğısının bariz təzahürüdür. Ötən müddət ərzində Boloniya sisteminin tam tətbiqinə nail olunması, elektron universitet quruculuğu, distant təhsilin tətbiqi istiqamətində də əhəmiyyətli uğurlar qazanılıb. Bu uğurlar ali məktəbin reytinqinin artmasına səbəb olub. Təsadüfi deyil ki, bu il 938 tələbə, 107 magistrant, o cümlədən 35 nəfər 600-dən yuxarı bal toplayan tələbə ali təhsil almaq üçün Naxçıvan Dövlət Universitetini seçib.

Rektor ali məktəbə qəbul olunan tələbələri təbrik edərək universitet kollektivinə yeni tədris ilində uğurlar arzulayıb.

Yığıncaqda Tibb fakültəsinin "müalicə işi" ixtisası üzrə I kurs tələbəsi, Prezident təqaüdçüsü, 677 bal toplamış Amil Qasımov, 671 balla Sosial idarəetmə və hüquq fakültəsinin "hüquqşünaslıq" ixtisasına qəbul olunmuş Aynur Cəfərova, Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin "xarici dil müəllimliyi (ingilis dili)" ixtisası üzrə I kurs tələbəsi, 615 bal toplamış Sona Səfərova, Fizika-riyaziyyat fakültəsində "fizika müəllimliyi" ixtisası üzrə ali təhsil alacaq, 606 bal toplamış Nailə Vəliyeva, İqtisad fakültəsinin "dünya iqtisadiyyatı" ixtisasına 601 balla qəbul olunmuş Aytac Yusifzadə çıxış ediblər. Çıxışlarda Azərbaycanda elmin, təhsilin inkişafından bəhs olunub, təhsilə göstərilən hərtərəfli dövlət qayğısına görə minnətdarlıq ifadə edilib.

Sonda 600-dən yuxarı bal toplayaraq universitetə qəbul olunmuş tələbələrə tələbə bileti və qiymət kitabçaları, "Naxçıvan Ensiklopediyası" kitabı təqdim olunub.

**Mehriban SULTAN**

***Sentyabrın 15-də Naxçıvan Müəllimlər İnstitutunda da Bilik Günü və 2014-2015-ci tədris ilinin başlanması münasibətilə tədbir keçirilib.***

İnstitutun rektoru, professor Oruc Həsənli çıxış edərək yeni dərs ilinin başlanmasının hər bir ailənin həyatında əlamətdar mərhələ olduğunu bildirib. Rektor qeyd edib ki, tarix boyu öyrənmək, biliklərə yiyələnmək və onu tədris etmək müqəddəs əməl hesab olunub. Xalqımız daim elm öyrənməyi, təhsil almağı, gənc nəslin savadlanması üçün məktəbin rolunu yüksək qiymətləndirib. Elə buna görədir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın dövlətçilik təməlini qoyarkən onun əsas sütunlarından birinin təhsil olduğunu vurğulayıb, ölkəmizin milli təhsil strategiyasını yaradıb. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi təhsildə yeni və müasir mərhələnin başlanmasına səbəb olub.

Bildirilib ki, muxtar respublikada ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris korpuslarının tikilməsi, müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində uğurlu nəticələrin qazanılmasına, tələbələrin ixtisaslı kadr kimi yetişmələrinə imkan yaradıb. Yaradılan şəraitin nəticəsidir ki, hər il ali məktəblərə qəbul imtahanlarında muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrini seçən abituriyentlərin sayı artır. Builki qəbul imtahanlarında tələbə adını qazanmış abituriyentlərdən 262 nəfər Naxçıvan Müəllimlər İnstitutunda təhsil almağa üstünlük verib.

Bildirilib ki, bizim təhsilimizin məqsədi tələbələrə elm, bilik öyrətməklə yanaşı, həm də onları yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər kimi yetişdirməkdir. Unutmaq olmaz ki, Azərbaycanın gələcəyi bugünkü gənclərə etibar ediləcək. Odur ki, bu günün tələbələri müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməlidirlər.

**Sona MİRZƏYEVA**

***İtmişdir***

Məhərrəmov Nihad İlqar oğlunun adına verilmiş zabitin 0040756 nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 796